# «Azərbaycanda quruda 2D seysmik işlər üzrə Birgə Tədqiqatın Ətraf Mühitə Təsirinin Qiymətləndirilməsi (ƏMTQ)» layihə sənədinin Şəki, Qəbələ və Şamaxı şəhərlərində ictimai dinləmələri keçiriləcəkdir

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) və «ConocoPhillips Exploration Azerbaijan Ltd». (ConocoPhillips) şirkəti arasında Azərbaycan Respublikasının ərazisində quruda kəşfiyyatqabağı fəaliyyətə dair birgə tədqiqat sazişinin bir hissəsi kimi iki ölçülü (2D) seysmik işlərin aparılması üzrə Ətraf Mühitə Təsirlərin Qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması üçün keçirilən tenderdə Ekologiya İdarəsi qalib gəlmişdir.

Bununla əlaqədar olaraq ARDNŞ, ConocoPhillips və Ekologiya İdarəsi arasında «Azərbaycanda quruda 2D seysmik işlər üzrə Birgə Tədqiqatın Ətraf Mühitə Təsirin Qiymətləndirilməsinin» Hazırlanması, Təqdimi və Təsdiqi üzrə Konsultasiya Xidmətlərinin göstərilməsi barədə müqavilə imzalanmışdır.

Layihə işləri Azərbaycan ərazisində Böyük Qafqaz dağlarının cənub yamacının alçaq dağlıq, dağətəyi və qismən Kür-Araz ovalığının şimal hissəsi daxil olmaqla 8000 kvadrat kilometr sahədə 14 (on dörd) rayon ərazisini (Kürdəmir, Ucar, Ağdaş, Göyçay, Yevlax, Qax, Şəki, Qəbələ, Oğuz, İsmayıllı, Şamaxı, Ağsu, Qobustan, Mingəçevir) əhatə edir.

Planlaşdırılan layihənin məqsədi keyfiyyətli seysmik məlumatları əldə etməklə layihə ərazisində mezozoy çöküntülərinin geoloji quruluşunu tədqiq etmək, yeni perspektivli neftli-qazlı sahələri müəyyən etməkdir.

Bu isə gələcəkdə yerli icmaların həyat səviyyəsinin yüksəlməsinə, yeni iş yerlərinin yaranmasına, məşğulluq səviyyəsinin artmasına və ümumilikdə regionun prespektiv sosial-iqtisadi inkişafının sürətləndirilməsinə xidmət edəcəkdir.

ƏMTQ sənədinin hazırlanması istiqamətində Ekologiya İdarəsində yaradılmış layihə qrupu tərəfindən seysmik xətlərin keçdiyi rayonlarda Rayon İcra nümayəndələri, ETSN-nin Ərazi Ekologiya və Təbii Sərvətlər şöbələrinin, Meşə Mühafizəsi və Bərpası Müəssisələrinin, Dövlət Təbiət Qoruqlarının və digər aidiyyəti dövlət qurumlarının nümayəndələrinin birgə iştirakı ilə ilkin müzakirə və məsləhətləşmələr həyata keçirilmiş, sənədin hazırlanması üçün ilkin məlumatlar toplanmış və seysmik xətlər ekoloji həssas ərazilərdən uzaqlaşdırılmışdır.

Bundan əlavə seysmik xətlərin keçdiyi ərazilərdə Ekologiya İdarəsi tərəfindən kompleks ekoloji monitorinqlər aparılaraq ərazinin torpaq-bitki örtüyü, atmosfer havası, su mənbələri və qrunt sularının tərkibi, flora və faunası, iqlim şəraiti, coğrafi relyefi, mədəni-tarixi abidələri tədqiq edilmiş, o cümlədən sosial-iqtisadi mühit qiymətləndirilmişdir.

Həyata keçirilmiş tədqiqatların nəticəsi olaraq Azərbaycan Respublikasının Ekoloji Qanunvericiliyinin və Beynəlxalq Ekoloji standartların tələblərinə uyğun ƏMTQ sənədi hazırlanmışdır.

Sənəddə layihənin həyata keçirilməsi mərhələlərində ətraf mühitə mümkün potensial təsirlər qiymətləndirilmiş, bu təsirlərin aradan qaldırılması üçün qabaqlayıcı tədbirlər göstərilmiş, layihə üzrə alternativ variantlar müəyyənləşdirilmiş, Ətraf Mühitin İdarə edilməsi və Monitorinq Planı hazırlanmışdır.

Layihənin əhatə etdiyi region üzrə ictimai rəyin öyrənilməsi, layihə ilə əlaqədar yerli icmalarla müzakirələrin aparılması, layihənin məqsədləri barədə ətraflı məlumatların verilməsi, o cümlədən təklif və rəylərin yekun sənəddə nəzərə alınması böyük əhəmiyyət kəsb edir.

Bununla əlaqədar olaraq hazırlanan ƏMTQ sənədinin ictimai dinləmələrinin keçirilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə **Qax, Şəki, Oğuz rayonu və Mingəçevir şəhəri üzrə - Şəki şəhərində, 27 fevral 2013-cü il tarixində, saat 10⁰⁰-da;**

**Yevlax, Qəbələ, Göyçay, İsmayıllı, Ucar, Ağdaş rayonları üzrə - Qəbələ şəhərində, 28 fevral 2013-cü il tarixində, saat 10⁰⁰-da;**

**Ağsu, Şamaxı, Kürdəmir, Qobustan rayonları üzrə - Şamaxı şəhərində, 1 mart 2013-cü il tarixində, saat 10⁰⁰-da dinləmələr keçiriləcəkdir.**

ƏMTQ sənədi ilə tanış olmaq üçün layihə üzrə təyin olunmuş əlaqələndiricilər: - Şəki Şəhəri İcra Hakimiyyətinin aqrar məsələlər şöbəsinin baş məsləhətçisi Rafiq Məmmədov (mob: (055) 625 02 35), Qəbələ Rayonu İcra Hakimiyyəti başçısının aqrar məsələlər üzrə müavini Rahib Əhmədov (mob: (050) 319 09 35; tel: (02420) 5 19 56) və Şamaxı Rayonu İcra Hakimiyyətinin aqrar məsələlər şöbəsinin böyük məsləhətçisi Elçin Cəfərov (mob: (050) 545 95 09) ilə əlaqə saxlanıla bilər.

Ətraflı məlumat almaq üçün layihə üzrə əlaqələndirici şəxs ARDNŞ-in Ekologiya İdarəsinin Texniki İstehsalat şöbəsinin rəisi Rüstəm Rüstəmzadəyə müraciət edilə bilər. **Əlaqə nömrələri (tel: (012) 521 08 36; mob: (050) 208 03 69; fax: (012) 521 08 22).**

# Ermənilər qocalara, qadınlara və uşaqlara aman vermədilər

(Əvvəli 4-cü səhifədə).

Onlardan biri—fransız jurnalisti demişdir ki, mən müharibələr, alman faşistlərinin qəddarlıqları haqqında da çox şey eşitmişəm. Lakin 5—6 yaşlı uşaqları, dinc əhalini qırmaqda ermənilər onları ötüb keçmiş, arxada qoymuşlar. Bu hadisələri təkcə görənlər deyil, eşidənlər də dəhşətə gəlirdilər.

Biz vəhşicəsinə öldürülmüş, işgəncələr verilmiş, şikəst edilmiş həmvətənlərimizin xatirəsi önündə baş əyirik. Erməni quldurlarının xalqımıza qarşı törətdiyi Xocalı dəhşətini heç zaman unutmayacağıq. Xocalı şəhidlərinin qisasını yerdə qoymayacağıq.

—Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə 26 fevral «Xocalı soyqırımı və milli matəm günü» elan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdir. Bu gün ölkəmizin hər yerində Xocalının günahsız qurbanlarının əziz xatirəsi ehtiramla yad edilir.

Allah bütün şəhidlərə rəhmət eləsin!

**Kamal HƏSƏNOV,**
**Şuşa şəhər 24 saylı ümumi orta məktəbin tarix müəllimi.**

# Əhalinin maarifləndirilməsi diqqət mərkəzində olmalıdır

*(Regional Mərkəzdə «Dəyirmi masa»)*

Baş verə biləcək bədbəxt hadisələrin qarşısının vaxtında alınması, fövqəladə hallar zamanı dəyə biləcək ziyanın minimuma endirilməsi üçün əhali ilə aparılan təbliğat işinin əhəmiyyəti olduqca böyükdür. Bunların mətbuat vasitəsilə vətəndaşlara çatdırılması isə daha önəmli vasitə sayılır. Elə həmin məramla bu günlərdə Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzində rayon qəzeti ilə birlikdə «Dəyirmi masa» keçirilmişdir. Tədbirin keçirilməsində məqsəd yuxarıda qeyd etdiyimiz kimi geniş əhali kütləsinin bu sahədəki bilgilərlə bir daha maarifləndirilməsi, reklam və təbliğat vasitəsilə bunların hamıya çatdırılması idi. «Dəyirmi masa» ətrafında söhbətlərdə Mərkəzin işçi kollektivi ilə qəzet əməkdaşları arasında qarşılıqlı fikir mübadiləsi aparılmış, rayon üçün xarakterik olan təbii fəlakətlər, mövsümi hadisələr, bununla bağlı qabaqlayıcı tədbirlər və hadisələrin baş verdiyi zaman davranış qaydaları haqqında müfəssəl məlumatların mütəmadi olaraq qəzet səhifələrində də əhaliyə çatdırılması vacibliyindən danışılmışdır. Qeyd olunmuşdur ki, ayda dörd dəfə, səkkiz səhifə həcmində, hər nömrəsi 2.300 nüsxə tirajla çap olunan və rayonun bütün bölgələrində kütləvi tirajla yayılan qəzetdə işıqlandırılan hər bir maarifləndirici materialın baş vurə biləcək föəqəladə halların qarşısının alınmasında çox böyük faydası ola bilər.



(Ardı 7-ci səhifədə).